# 3 əsrlik böhran alovlanır: Türkiyə üçün ağır ssenari

Egey dənizində Türkiyə və Yunanıstan arasında hərbi konfliktin olması ehtimalı yüksəkdir. Çünki həm Egey dənizində, həm də Aralıq dənizində Suriya məsələsi konteksində gərginliklər artmaqdadır.

Turkustan.info bildirir ki, bu sözləri  Axar.az-a açıqlamasında QAFSAM-ın sədr müavini, siyasi elmlər üzrə fəlsəfə doktoru Nazim Cəfərsoy Türkiyə Dəniz Qüvvələri Komandanlığının Aralıq dənizinin şərqi və Egey dənizi istiqamətinə 14 gəmi göndərməsinə münasibət bildirərkən deyib. O bu addımın gözlənilən olduğunu vurğulayıb:

“Kipr məsələsi ilə də bağlı uzun müddətdir müzakirələr aparılırdı. Bu müzakirələr bir nəticə vermir. Ona görə də son dövrlərdə tərəflər sərt ritorikadan istifadə edirdilər. Digər tərəfdən, Aralıq dənizi son dövrlərdə hərbi dəniz güclərinin təmərküzləşdiyi zonaya çevrilib. Ən son ABŞ bura bir neçə hərbi gəmi göndərdi. Rusiya Suriyadakı hərbi bazalarından müəyyən gəmiləri Aralıq dənizinə çıxarmağa başladı. Aralıq dənizində həm İsrailin, həm İranın, həm də Avropa Birliyi ölkələrinin – Fransa, İngiltərə hərbi gücləri var. Bu coğrafiyada problemlər çox ciddi şəkil almaqdadır. Burada hərbi dəniz güclərinin təmərküzləşməsi və aktiv təlim keçirilməsi prosesi

gedir”.

N.Cəfərsoyun sözlərinə görə, əslində, regionda Aralıq dənizindəki ən güclü donanmalardan biri Türkiyəyə məxsusdur:

“Ancaq Aralıq dənizi ətrafında Suriya mərkəzli hadisələr, daha əvvəl İraq ətrafı hadisələr bölgədə xarici güclərin mövcudluğunu daha da artırıb. Türkiyənin bu addımı regionun müxtəlif yerlərində öz hərbi güclərini gücləndirmək məqsədi güdür. Yəni Türkiyə oradakı vəziyyətə görə yeni bir manevr imkanı, yeni bir mövqe tutmağa başlayıb. Öz hərbi güclərinin orada olan donanmalardan geri qalmaması və hadisələrə qarşı müəyyən tədbirlər almaq üçün belə addım atır”.

N.Cəfərsoy qeyd edib ki, Egey dənizinə göndərilən hərbi donanmalar Yunanıstana qarşı olan hərbi tədbirlərin yeni bir mərhələsidir:

“Türkiyə və Yunanıstan arasında Egey dənizi ətrafında çox ciddi problemlər var. Bu iki ölkə arasında 3 əsrə dayanan konflikt mövcuddur. Ancaq son 5-6 ildir ki, bu gərginlik çox təhlükəli bir səviyyəyə çatıb. Xüsusilə Yunanıstan son dövrlərdə iki ölkə arasındakı münasibətlərin tənzimləndiyi müqavilələrin şərtlərini pozaraq, Egey dənizində statusunu dəyişdirmək üçün müxtəlif hərbi xarakterli addımlar atır. Məsələn, hərbiləşdirilməməli olan regionlara hərbçilər yerləşdirir, hərbi manevrlər keçirilməsi nəzərdə

tutulmayan yerlərdə hərbi manevrlər edir. Hətta türk mətbuatında tez-tez gündəmə gələn iddialardan biri budur ki, Yunanıstan tərəfindən Türkiyəyə məxsus bir neçə ərazi işğal olunub. Türkiyə müxalifəti də hakimiyyəti sıx-sıx bununla bağlı günahlandırır. Hakimiyyət rəsmi şəkildə açıqlamasa da, ara-sıra açıqlamalarında Yunanıstanın regionda xüsusi təhlükəli vəziyyət yaratdığına işarə edir. Çox maraqlıdır ki, son dövrlər Yunanıstan tərəfindən Türkiyəyə qarşı sərt açıqlamalar da səsləndirilir".

N.Cəfərsoy vurğulayıb ki, Türkiyə Yunanıstanın bu təxribatçı fəaliyyətlərinə təkcə diplomatik deyil, həm də hərbi tədbirlər həyata keçirməyə başlayıb:

"Doğrusu, qarşıdakı dövrdə bölgədə yeni Kardak böhranı yaşana bilər. Bu böhran Türkiyə və Yunanıstan arasında təxminən 90-cı illərin ortalarında baş vermiş bir proses idi. Bənzər bir şəkildə Türkiyə və Yunanıstan arasında hərbi qarşıdurmanın olacağını proqnozlaşdırmaq olar. Çünki ən azından artıq bunun üçün hazırlıqlar gedir. Yunanıstan tərəfi hərbi manevrlər keçirib, çox ciddi addımlar atılıb. Yunanıstan Müdafiə Nazirliyindən provakasiya xarakterli açıqlamalar gündəmə gəlir. Bunu həm də Yunanıstanın bölgədəki vəziyyəti gərginləşdirmə siyasətinin bir parçası kimi də dəyərləndirmək olar".

Qeyd edək ki, Türkiyə Dəniz Qüvvələri Komandanlığı Əsəd bəhanəsi ilə

Aralıq dənizində yerləşməyə çalışan ABŞ, Britaniya, Fransa və təxribatları artıran Afinaya qarşı tədbir görüb. Aralıq dənizinin şərqi və Egey dənizi istiqamətində nəzarəti artırmaq üçün əraziyə 2 sualtı qayıq və 12 döyüş gəmisi cəlb edib.